**Bütöv Azərbaycanın ucqar qərb hissəsində, Şərqi Anadolu yaylasının Qars bölgəsi ilə həmsərhəd olan, Araz və Arpaçay çayları hövzəsinin orta və yüksək dağlıq hissələrini - Böyük və Kişik Ağbaba qurşaqlarını (Baş Güney, Qaya Güney, Qısırdağ, Keçəldağ, Göydağ, Tayaqaya....) tutan, müqəddəs Haqq ocağı kimi ziyarətgah məqamları - Ağbaba pirinin, Seyid Ağa, Seyid Heydər ocağının... ruhu yayılan Ağbaba mahalı, həm də, Türk-Müsəlman mədəniyyəti və dini-sakral fəlsəfəsi irsinin xronoloji-sənədli tarixi (milli incəsənət, dekorativ-rəsm toxuculuğu, zərif ilmə-naxış xəttatlığı.. da daxil olmaqla) yazılmış milli salnamə çoxcildliyinin zəngin səhifələrindən biridir...**



# Ağbaba mahalının xalçaçılıq irsi...

Yeni minilliyin Alban intibahı və İslamaqədərki dövrü əhatə edən Təkamül və Mədəniyyət mərhələlərinin dini-sakral inanc mərasimlərinin və təqva yolunun ocaqları nümunəsində Türk-Müsəlman coğrafiyasında İlahi Haqqa tapınmaqla Ruhun təmizləndiyi məkanlardan biri də adının etimoloji mənasından göründüyü kimi əski, müqəddəs Ağbaba ("Ulu, Müqəddəs Varlıq" anlamında) mahalı kökənli milli-tarixi irsimizi yaşadan bölgə olaraq yaranışdan təbii zənginliyinin abidələri də qalmaqdadır.

Mahalın Ağbaba (haylar "Amasiya" adlandırır) nahiyəsinin qədim-qayım yurd yerləri (Mağaracıq, Düzkənd, Çivinli, Güllübulaq, Quzukənd, Ayıçınqıllı/İbiş, Mağaracıq, Qaraçanta, Qara Namaz, Çaxmaq, Quzukənd, Oxçuoğlu, İlanlı, Güllücə....), kökənli Türk-Müsəlman qövmü həmişə bu zənginliyi İlahi Əmanət sanıblar, torpağını-daşını tutiyə bilib gözlərinə sürtüblər, yurd-ocaq ətrini qəlb ruhunda saxlayıblar, İbadət-Ziyarət ocaqlarının başına ləpir-ləpir dolanıblar. Bu zənginliyi artırmaqla ürəklərindən-əllərindən qopan duyğularını da naxışa çevirib zərgər dəqiqliyi ilə ilmə-ilmə ipək-yun əriş/arğaclarda və daş lövhələrdə yaşadıblar....xanımlarının toxuduqları nəsnələr (corabdan tutmuş xalça-gəbəyə kimi) zərifliyi, gözəlliyi, ölməzliyi...ilə dünya şəhərlərində heyranlıq doğurub, müqəddəs məzarlıqların sənduqə və baş daşlarının oyma hüsn-xətti kimi naxışlanıb mahir ustaların əlləri ilə. Bu səbəbdəndir ki, Ağbaba mahalının daş nəqqaşlığı, miniatür rəssamlığı, dekorativ təsviri, eləcə də, xalçaçılığı qədim Qərbi Azərbaycan mədəniyyəti və incəsənəti mərhələsinin xüsusi tarixi mərhələsini təşkil etmişdir.

Haşiyə. Türk dünyasının əski tarixi səhifəsində şərəfli yer tutan və 2500 illik yaşa malik xalça toxuculu nümunəsi 1949-cu ildə Altay dağlığı guşələrinin birində tapılmış və hazırda Sankt-Peterburq şəhərinin Dövlət Ermitajında saxlanılır.

Şərqi Anadolu bölgəsinin Qars mahalının Arpaçay və Ağyaxa ilçələri ilə (Atçılar, Gülüzü, Meydancıq (əhalisi 1918-ci ildə Göyçə bölgəsindəki soyqırım faciəsindən qurtulanlar olub), Tomarlı, Böyük Pirvəli, Camışlı, İbişköy (Ayıçınqıllı/İbiş kəndinin 1918-1920-ci illər soyqırımı faciələrini yaşayan ailərin yaşadığı kənd), Qaraqaş...) qonşu olan Ağbaba nahiyəsi tarixi-coğrafi bağlılığa rəğmən ÜmumTürk birliyini, milli-mənəvi dəyərlərin kökənliyini, mədəniyyət köklərini qoruya bilmiş, ilk növbədə xalq sənətkarlığı nümunələrində nəsildən-nəsilə ötürülmüşdür, eləcə də, palaz-sumağ, xalça-gəbə toxuculuğu timsalında. Bu ərazilərin tarixi-coğrafi və milli-mənəvi bağlılığı dekorativ-miniatür toxuculuq sənətinin eyni kökdən rişələnməsində ifadə olunmuşdur. Ağbaba mahalında intişar etmiş bütün növ münüatür və kilim-palaz, sumağ, marşaf, keçə, xalça-gəbə toxuculuğu eyni ilə Qars-Ərdahan mahalları kəndlərində də eyni üslubda, eyni çeşnidə, eyni rəsm-xəttatlığı ilə icra edilnmişdir. Yerli əhalisi ümumilikdə tərəkəmə elatından-Qarapapaqlılar tayfasının şəcərə soylarından olduğu üçün bölgənin toxuculuq sənəti tarixi inkişaf mərhələsi keçmiş və ənənəvi dəyərləri əxz etmişdir.

1918-1920-ci illərdə dinsiz hay-daşnak kilsəsi və general M.M.Silikyanın (1862-1937), polkovnik P.Poqosyanın (1864-1922), qaniçən-cani İ.X.Baqramyanın.(1897-1982, sonralar Sovet İttifaqı Marşalı, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı olub)...silahlı-quldur dəstələri Ağbaba mahalının 33 kəndində yerli əhaliyə qarşı soyqırım faciələrini yaşatmaqla yanaşı, həm də Türk-Müsəlman əhalisinin 3000-dən çox xalça-gəbə mülkünü qarət edib aparmışlar, bu nümunələrdən əksəriyyəti Qərbi Avropa ölkələrinin muzeylərində, sərgilərində "erməni irs nümunələri" adı altında nümayiş etdirilmişdir.

Əl toxuculuğunun kiçik nəsnələri (əlcək, corab, heybə, yük örtüyü...) də naxış-ilmə incəliyi ilə seçilmişdir. Toy mərasimlərində "Şah"ın bəzədilməsində, "Şah Bəyinin təltif edilməsi"ndə də bu nümunələrdən istifadə olunmuşdur.

Dəvə və qoyun yunundan toxunan dekorativ-xəttatlıq sənəti inciləri sırasında xalça-gəbə xanaları demək olar ki, bölgənin, o cümlədən, Ağbaba nahiyəsinin bütün Türk-Müsəlman kəndlərinin evlərində qurulurdu, uzun qış gecələrində isti ocaqlardan həvəkirgit səsləri eşidilirdi, erişlərin arasına vurulan ilmələr dəqiqliklə naxışlanırdı, məriş-arğacların yığılıb-açılması...incəliyi sezilirdi... Güllübulaq kəndində də...

Tarixən toxuculuq gələnəklərində corablardan xaralçuvallara, saya palazlardan tutmuş sumağ, xalça-gəbələrədək...əl işləri xüsusi məzmun, məna və mistik duyğuların təsviri/təsiri ilə yaranırdı, özünəməxsus gözəllik kəsb edirdi, el şənliklərinin bəzəyinə, hüznlü günlərin təsəllisinə çevrilirdi.

Nahiyənin bütün Türk-Müsəlman kəndlərində bu kimi dekorativ-minatür sənət növləri inkişaf etmişdir, amma Güllübulaq kəndində xalça-gəbə toxuculuğu Qars mahalının Ağyaxa nahiyəsinin Qızıldaş/Çuxuryurd kəndi ilə (araları 500 m olardı) eyni ümumi məktəbə malik olduğundan, qonşu kəndlərdən (Balıqlı, Güllücə...) gəlib bu sənətin incəliklərini ustad toxucular-dan (Nərgiz nənə (1859-1969), Leyli İbrahim qızı Vəliyeva (1910-2006), Minayə Apo qızı Rzayeva (1945), Piruzə Zemin qızı (1946-2017, əslən qonşu Oxçuoğlu kəndindən olub, bu kənddə Kamil Baboy oğlu Quliyevin (1941-2015) həyat yoldaşı), Qızxanım Məcid qızı Elləzova (1947-2015), Məleykə Məhəmmədəli qızı Yusifova (1953, Şəfiqə Orucova, Hənifə Nəsib qızı Ellazova (1961-2023), Tükəzban Çoban qızı Məmmədova (1959), Səkinə Məhəmmədəli qızı Abdullayeva (1962)...) öyrənir və inkişaf etdirirdilər.

Ən çox "Qarabağ" (Qarabağın rəngarəng təbiətinin təsviri), "Atlı çapar" (Qoça atı yüyəndinə saxlayan çapar), "Çahar bağ"(Dörd bağ mənzərəsi), "Bahar"....xalça-gəbə (ölçüləri 0,70 x 1,2, 1 x 2 m, 2 x 3 m olmaqla), "Göl-göl", "Qaynaq"..sumağ (xovsuz) çeşnilərindən istifadə olunmuş, adicə əlcək-corab naxışları da xüsusi ilə seçilirdi.

1970-80-ci illərdə toxunan bütün xalça-gəbələrin (şeçnisindən asılı olmayaraq) baş tərəfində "Qarabağ" sözü yazılırdı...1927-ci ildə toxunan "Atlı çapar" xalısı 1980-ci illərin sonuna kimi qalırdı...

1970-ci illərin əvvəllərində kənd sakini Şamil Nəsib oğlu Murtuzovun (1929-2006) evinin 1-ci mərtəbəsində yaranan xalçaçılıq sexi 1975-ci ilədək davam etmiş, sonralar daha böyük müəssisəyə çevrilmişdir.

Təsadüfi deyil ki, 1979-1980-ci illərdə İrəvan şəhərində keçirilən müsabiqədə Güllübulaq kəndinin xalça ustaları qalib olmuşlar, nahiyə mərkəzindəki "Şərəf lövhəsi"ni Salatın Əlirza qızının (1938-2014) şəkli bəzəyirdi...

Ağbaba mahalının toxuculuq-xalçaçılıq sənəti irsinin millilik-özəllik üslubu XV-XVI əsrlər Təkamül dövründə xeyli zənginləşmiş, Çuxur-Səəd bəylərbəyliyinin dekorativ-rəssamlığı, Qars-Urmiya miniatür xəttatlığı...məktəbləri, Təbriz-Naxçıvan/Ordubad nəqqaşlığı təsviri...daş-oyma üslubu, Ərzurum xovlu toxuculuq sənəti...gələnəklərin yaradıcılıqla inkişaf etdirərək yeni xovlu-xovsuz toxuculuq yaradıcılığına yiyələnərək xüsusi mərhələ yaradılmışdır. Belə ki, nahiyədə toxunan xovlu-xovsuz sumağ-xalça çeşnilərinin naxışları-ilmələri ümumilikdə Öksüz və Çaxmaq kənlərində mistik-ruhani duyğulardan (yarpaq və budaq təsvirləri, sənduqə naxışları, xəncər və tişə ucluqları şəklində..görünüşündə), ilk növbədə ərazidə ziyarət olunan "Öksüz piri"nin, "Şiş dağı ocağı"nın müqəddəs hesab edilən İtburnu kollarının siluetindən, Güllübulaq kəndinin "Seyidlər ocağı"na ruhani bağlılığdan, e.ə. IV əsr Alban məbədinin silinməmiş daş oymalrından, "Kilsə bulağı"nın gözündən, Mağaracıq kəndi yaxınlığındakı Göydağdan çağlayan bulaqların ("Soyuq bulaq", "Daşlı bulaq", "Şalxam gözlü bulaq", "Südlü bulaq"...üstündəki əsrarəngiz daşlı-sucaqlı relyef mənzərəsindən, bu kəndin "Ömər dərəsi"ndə "Seyid Məhəmməd məqamı"na edilən ruhani zikr dualarından, müqəddəs "Göy dağ"ın ətəyindəki Çivinli kəndi mərkəzində, çayın kənarındaki 2 daş sütunlar(qalınlığı 40-50 sm, hündürlüyü 3 m-ə çatan) üzərində oyulmuş (amma oxunmamış) yazı xəttinin təsvirindən, Arpaçayın sol sahilinə yaxın "Ocaqqulu yeri"ndə 30 m-ə kimi boy verən qədim "Qara qala"nın hörgülərinin yatımından, Qaraçanta kəndi məzarlığında 1940-cı və 1958-ci illərdə inşa edilmiş Seyid Ağa Seyid Bayram oğlunun (1820-1896), Seyid Məhəmməd Seyid Ağa oğlunun (1872-1953) məqbərələri üzərində nəqş edilmiş "Qurani-Şərif" ayələrinin möhüründən.. yaranmışdır...

Göründüyü kimi, Qərbi Azərbaycan xalçaçılıq məktəbinin təməl dəyərlərinin öyrənilməsi sırasında xalqımızın dini-sakral, ruhani-fəlsəfi irsinin elmi-nəzəri təhlili, milli-mənəvi mədəniyyət nümunələrinin tədqiqnə ciddi zərurət yaranmışdır.

Bu baxımdan Zəngi çayı və Alagöz dağı hövzələrinin zənginliyi də istisna deyil.

*(Ardı növbəti yazımızda)*

***Qismət Yunusoğlu,***
***Bakı Dövlət Universitetinin müəllimi***

***R.S. Ağbaba mahalının mərkəzi Ağbaba nahiyəsinin adını mürtəce, dinsiz hay-daşnak kilsəsi dəyişərək-"Amasiya", Çaybasar/İlanlı kəndini-"Aravet", Çivinli kəndini-"Yeğnacur", Düzkənd kəndini-"Axuyan", Mağaracıq kəndini-"Qtaşen", Güllübulaq kəndini-"Byurakan", Oxçuoğlu kəndini-"Boxçi", Arpaçay çayının adını-"Axuryan"...adlandırır.. Yazının hazırlanmasında həm də Qərbi Azərbaycanın Ağbaba bölgəsinin Ağbaba/Amasiya nahiyəsinin Güllübulaq kənd sakinləri Rza Müseyib oğlu Ellazovun (1949), İsa Qurban oğlu Məmmədovun (1954) və Əhməd Məmməd oğlu Rzayevin (1964) məlumatlarından da istifadə olunmuşdur.***